| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 16.12.2014 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1141-IVQD |
| **ADI** | "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 04-02-2015, Nəşr nömrəsi: 026), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2015, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 82) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 04.02.2015 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 210.040.070 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201412161141 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 06.02.2015 |

## “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə [1]

-

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

-

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 82; 2001, 12, maddə 736; 2002, 3, maddə 116, 5, maddə 245; 2004, 2, maddələr 57, 58; 2005, 4, maddə 278; 2007, 8, maddə 752, 11, maddə 1079; 2009, 4, maddə 212, 8, maddə 611; 2010, 3, maddə 172) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin 1-ci hissəsinin on ikinci abzasında nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və hissəyə aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

“oxşar ad - əvvəllər uçota alınmış mətbu nəşrin adının digər təsisçi tərəfindən xarici dilə tərcüməsi və ya yalnız adındakı sözlərin yerinin dəyişdirilməsi ilə fərqlənən, həmçinin simvolun və ya simvolu ifadə edən sözün əlavə edilməsinə baxmayaraq, mətbu nəşrin adları ilə eynilik təşkil edən adlar.”.

2. 14-cü maddənin beşinci hissəsinin ikinci cümləsində “eyni” sözü “eyni və ya oxşar” sözləri ilə əvəz edilsin.

3. 19-cu maddənin üçüncü hissəsində:

3.1. 3-cü bənddə “maliyyələşdirildiyi müəyyənləşdirildikdə” sözləri “maliyyələşdirilməsini aşkar etmiş qurumların məlumatları daxil olduqda” sözləri ilə əvəz edilsin;

3.2. 4-cü bənddə “üç dəfə” sözləri “iki dəfə” sözləri ilə əvəz edilsin.

-

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

-

Bakı şəhəri, 16 dekabr 2014-cü il
1141-IVQD

-

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

-

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə ləğv edilmişdir.